# "Bilik Günü" qeyd olundu

***Bu ilki " Bilik Günü" bayramı çox əlamətdar bir dövrə təsadüf edir. Düz yüz il öncə Şərqdə ilk demokratik hakimiyyət quruluşuna malik olan Azərbaycan Xalq Cumhuriyyəti hökuməti "Təhsilin milliləşdirilməsi haqqında" qərar qəbul etmişdir. Həmin dövrdən keçən 100 ildə Azərbaycanda təhsil çox böyük inkişaf yolu keçmişdir. Yüz il bundan əvvəl əhalisinin cəmi 2-3 faizi (əsasən də ibtidai təhsilli) savadlı olan ölkəmizdə qısa müddətdə savadsızlıq bütünlüklə aradan qaldırılmışdır.***

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin hər iki dönəmində təhsilə çox böyük diqqət və qayğı göstərilib və bu siyasət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə Prezidentinin rəhbərliyi ilə məktəb tikintisi, maddi texniki təchizatı, şagirdlərin pulsuz dərsliklərlə təminatı, müəllimlərin əmək haqlarının mütəmadi olaraq artırılması, xaricdə təhsil alma məsələləri ulu öndərin müəyyən etdiyi yolla davam etdirilir. Hər il qəbul imtahanlarında ən yüksək bal toplayanlara Prezident təqaüdünün, istedadlı gənclərə fərdi təqaüdlərin və digər həvəsləndirici imtiyazların verilməsi təhsilə göstərilən qayğı və diqqətin təzahürlərindəndir.

Müəllimlərə, təhsil sahəsində çalışan digər işçilərə qayğı və diqqətin artırılması ilə yanaşı məktəblərin və digər, təlim-tərbiyə ocaqlarının maddi texniki bazasının yüksəldilməsi istiqamətində də böyük tədbirlər həyata keçirilir. Son 14 ildə ölkəmizdə məktəblərin 70 faizindən çoxu yeni tikilib və ya əsaslı təmir olunub. Əlverişsiz, qəzalı vəziyyətdə olan və uyğunlaşdırılmış binalarda yerləşən məktəblər yeniləri ilə əvəz olunub. Bütün bunların sayəsində ölkəmizdə təhsilin səviyyəsi durmadan artır.





Qəbələ təhsilin səviyyəsi və keyfiyyətinə görə respublikamızın öndə gedən rayonları sırasındadır.

Ötən dərs ilində rayonda 68 ümumtəhsil məktəbi fəaliyyət göstrəmişdir ki, onların 53-ü tam orta, 12-si ümumi orta 3-ü ibtidai ümumtəhsil məktəbləridir. 18000 nəfərə yaxın şagird kontingentinin təhsili, tərbiyəsi ilə 2279 nəfər müəllim məşğul olmuşdur. 2017-2018-ci dərs ilinin yekunlarına görə rayonumuz öncül yerini qoruyub saxlamışdır. Belə ki, 2017-2018-ci dərs ilində rayonumuzun tam orta ümumtəhsil məktəblərini bitirmiş 1164 məzundan 814 nəfəri ali məktəblərə qəbul olunmaq üçün sənəd təqdim etmiş, onlardan 508 nəfəri tələbə adını qazanmış, 50 nəfər məzun qəbul imtahanlarında 600-dən yuxarı bal toplamışdır.

Ümumtəhsil məktəblərinin maddi texniki bazasının möhkəmləndirilməsi üçün son illərdə həyata keçirilmiş böyük layihələr davam etdirilmişdir. Dağ kəndi Lazada 80 yerlik, Zərgərli kəndində 56 yerlik modul tipli məktəb binaları quraşdırılmışdır. Vəndam qəsəbə 2 nömrəli tam orta məktəbi üçün 360 yerlik məktəb binasının tikintisinə, Qaradeyn kəndində 80 yerlik, Şəfili kəndində 20 yerlik modul tipli məktəblərin quraşdırılmasına yaxın günlərdə başlanması nəzərdə tutulmuşdur.







Bir sözlə Qəbələnin təhsil ocaqları 15 sentyabr "Bilik Günü"-nü nailiyyətlərlə qarşılamışlar. Rayonun bütün təhsil ocaqlarında sentyabrın 15-də Azərbaycan Respublikasının Dövlət Bayraqları qaldırılmış, Dövlət himni səslənmişdir. Məktəb rəhbərləri şagirdləri, müəllimləri, valideynləri "Bilik Günü" və yeni dərs ilinin başlanması münasibətilə təbrik etdikdən sonra ötən il əldə olunmuş nailiyyətlərdən, bu dərs ilində qarşıda duran vəzifələrdən danışmışlar. "Bilik Günü" tədbirlərndə iştirak edən rayon icra hakimiyyətinin məsul işçiləri, idarə və müəsisə rəhbərləri, ictimaiyyətin nümayəndələri müəllimləri, şagirdləri, valideynləri təbrik etmiş, onlara yeni-yeni uğurlar arzulamışlar.

"Bilik Günü" münasibətilə şagirdlərin ifasında təqdim olunan kompozisiyalar, söylənən şeirlər, oxunan mahnılar tədbir iştirakçılarına duyğulu anlar yaşadıb və alqışlarla qarşılanıb.

Yeni bir dərs ili başlandı. Uğurlu olsun.

**Qüdrət SƏMƏDOV,**
**İlkin Vəlizadə, Vüsal Səmədov və Səfa Aslanov (foto).**
**"Qəbələ"**

# Azərbaycançılıq təlim-tərbiyə sistemininində əsas yer tutur

***Ümumtəhsil məktəblərində müəllimlərin qarşısında qoyulan ümdə məsələlərdən biri Azərbaycançılıq məfkurəsinin mahiyyətinin izahı, milli-mənəvi dəyərlərimizin təbliğidir. Bu məsələlərin-milli-mənəvi dəyərlərimizin təbliği, qorunması 2018-2019-cu tədris ilində də ümum təhsil sahəsində prioritet fəaliyyət istiqaməti kimi müəyyən olunmuşdur.***

Azərbaycançılıq–xalqımızın çox əzab-əziyyətlə nail olduğu tarixi sərvətdir. Azərbaycançılıq–vahid, bölünməz Vətənimizi qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Azərbaycançılıq-müstəqil Azərbaycan dövlətinin əsas ideyası, məfkurəsidir.

"Bizim vətəndaşlıq borcumuz milli-mənəvi dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə, böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan ibarətdir"–ümummilli liderimiz Heydər Əliyevin bu fikri hər bir Azərbaycan vətəndaşına daim öz ölkəsi qarşısındakı borcunu xatırladır.

İşlədiyim Zarağan kənd 2 nömrəli tam orta məktəbin müəllim kollektivi də şagirdlərimizin vətənpərvər ruhda böyüməsi üçün əlindən gələn bütün imkanlardan istifadə edir. Məktəbdə keçirilən tədbirlər arasında müstəqillik gününə, Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə, qanlı 20 Yanvar, Xocalı faciəsi, 31 Mart–Soyqırımı Gününə həsr olunmuş tədbirlər xüsusi yer tutur. Bu il Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə, ulu öndərin anadan olmasının 95 illiyinə həsr olunmuş sislsilə tədbirlər keçirilmişdir. Bütün tədbirlərdə tariximizin öyrənilməsinə, milli-mənəvi dəyərlərimizin təbliğinə və milli mədəniyyətimizə, irsimizə sevgi və hörmət aşılamağa çalışmışıq. Əlbəttə ki, bundan sonra da uşaq və gənclərin vətənpərvərlik, milli-mənəvi dəyərlərə sadiqlik ruhunda tərbiyə edilməsi ilə bağlı biz müəllimləri qarşımızda duran vəzifəyə daha ciddi yanaşacaq və onun reallaşdırılması üçün əlimizdən gələni əsirgəməyəcəyik.

**Gülsəfa ƏZİMOVA,**
**Zarağan kənd 2 saylı tam orta məktəbin məllimi.**

# Pedaqoji mühazirələr yeni təcrübədir

Bu il ilk dəfə olaraq ölkəmizdə "Təhsildə keyfiyyət ili" çərçivəsində pedaqoji mühazirələr keçirilib. Pedaqoji mühazirələrin məqsədi ümumi təhsilin keyfiyyət göstəricisinin yaxşılaşdırılması ilə bağlı aktual məsələlərə diqqət ayırmaq, yaradıcı müəllimlərin, qabaqcıl təcrübə nümunələrini təblig etmək və perspektiv üçün inkişafyönümlü təkliflər hazırlamaqdan ibarətdir.

Mən "Təlimdə geri qalan şagirdlərlə iş təcrübəsindən" mövzusu ilə bu mühazirələrdə iştirak etdim. Hazırladığım məruzə ilk olaraq Qəbələ Rayon Təhsil Şöbəsində dinlənildi, daha sonra komissiyaya təqdim olunan məruzələrdən ikisi respublika mərhələsində iştirak üçün vəsiqə qazandı. Digər həmkarım kimi mənim üçün də pedaqoji mühazirələrin respublika mərhələsi uğurlu oldu. Mən ikinci dərəcəli diplomla təltif olundum.

Güclü şagirdlərlə işləmək həm çox asandır, həm də çox çətindir.

Çünki, onlar dərs zamanı izah olunan materialı çox tez mənimsəyir və tətbiq edirlər. Çətindir ona görə ki, güclü uşaqların dərsə tələbatını ödəmək üçün daha çox çalışmalısan. Amma daha da çətin olan zəif şagirdlərlə işləməkdir.

Elə bu mövzuya həsr olunmuş mühazirəmin uğuru bu sahədə müəyyən nailiyyətə nail olduğumun isbatıdır. Bir müəllim kimi bu məni çox sevindirir.

10 ildən artıq pedaqoji stajım olmasına baxmayaraq heç vaxt təhsil layihələrində iştirak etməmişdim. Nədənsə çəkinirdim, alınmayacağından ehtiyat edirdim. Amma bu dəfə özümü sınamağı qərara aldım və uğur qazandım. Pedaqoji mühazirələrdə iştrak etməyim mənim gələcək fəaliyyətim üçün bir stimul oldu. Artıq Təhsil Nazirliyinin həyata keçirdiyi bir çox layihələrində iştrak etməyi qarşıma məqsəd qoymuşam və bütün həmkarlarımı buna səsləyirəm. Mən inanıram ki, 2018-2019-cu tədris ilində daha çox uğur qazanacğıq. Hər birimiz bu şərəfli vəzifəni uca tutaraq səylə işləməyi əsas götürməliyik.

**Fərqanə AĞAYEVA,**
**Zalam kənd tam orta məktəbin tarix müəllimi.**